# ASTARADA İSTEHSAL OLUNAN ÇAY BEYNƏLXALQ SERTİFİKATA LAYİQ GÖRÜLÜB



Ölkə başçısı cənab İlham Əliyevin tapşırığına əsasən biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində sistemli tədbirlər həyata keçirilir. Yeni infrastruktur layihələrinin icrası əhalinin məşğulluğunun təmin olunmasına, yerli istehsalın artımına, dövlət investisiyalarının məqsədyönlü və səmərəli istifadəsinə xidmət edir.

Astara rayonunda istifadəyə verilmiş yeni çay emalı fabrikində məhsulun keyfiyyətinə xüsusi diqqət yetirilir. Buraxılan məhsulların beynəlxalq standartlara uyğunlaşdırılması daim diqqət mərkəzindədir.

"Astaraçay" MMC-də aparılan məqsədyönlü tədbirlər səmərəli nəticələr verir. Qısa müddət ərzində müəssisədə işlər beynəlxalq standartlar səviyyəsində qurulmuş, sənədləşdirmə işləri, daxili audit prosesi həyata keçirilmişdir. Türk Standartlar İnstitutu tərəfindən ətraflı araşdırma aparılmış, çay plantasiyasından emal prosesinə qədər mərhələlər dəqiqliklə öyrənilmişdir.

"Astaraçay" MMC-nin məhsullarının İSO standartları üzrə beynəlxalq sertifikatlara layiq görülməsinə həsr olunmuş mərasim keçirilib. Tədbir iştirakçıları əvvəl "Astaraçay" MMC-yə məxsus çay fabriki, muzey və çəltik sahələrilə tanış oldular. Qonaqlara kənd təsərrüfatının ənənəvi sahələrindən olan çayçılığın inkişaf tarixi, ulu öndər Heydər Əliyevin rəhbərliyilə ölkənin cənub bölgəsində çayçılığın inkişafı barədə məlumat verilib. Qeyd olunub ki, bir vaxtlar respublikada iri çayçılıq rayonu kimi tanınmış Astarada bu gün də çayçılıq uğurla inkişaf etdirilir.

"Astaraçay" MMC 2010-cu ildə yaradılıb. Kənd təsərrüfatının müxtəlif sahələrilə yanaşı, əsasən çayçılıqla məşğul olur. Müəssisənin ümumi əkin sahəsi 640 hektardır. Təsərrüfatda 400 hektar çay plantasiyası mövcuddur. Ötən il sahələrdən 177 ton yaşıl çay yarpağı yığılıb.

Plantasiyalarda müasir suvarma şəbəkəsi qurulub. "Kolxida" çay toxumları Gürcüstanın Batumi şəhərindəki Çayçılıq Elmi-Tədqiqat İnstitutunun tədris-təcrübə sahəsindən gətirilib və yerli şəraitə uyğunlaşdırılıb.

Müəssisə çəltikçiliklə də məşğul olur. Ötən il ilk dəfə səpmə üsulu ilə 100 hektar sahədə çəltik əkilib. Əkin işlərini Türkiyənin Ədirnə şəhərinin Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutunun çəltikçilik bölməsinin əməkdaşları və yerli mütəxəssislər həyata keçiriblər. "Haşimi" sortu ilə yanaşı, İtaliyadan gətirilmiş digər məhsuldar sortlar da əkilib. Çəltik sahələrindən 366 ton məhsul toplanıb.

Bu il 120 hektar sahədə çəltik əkilməsi nəzərdə tutulub. Lazımi texnika alınıb. Üç qurutma aqreqatı ilə təchiz edilmiş, gündəlik istehsal gücü 10 ton olan dəyirman əsaslı təmir edilərək istifadəyə verilib.

Qonaqlar "Astaraçay" MMC-nin çay fabrikilə də yaxından tanış oldular. Fabrik Koreya, Yaponiya və Almaniya şirkətlərinin layihəsi əsasında tikilib. Müəssisənin 5 hektar ərazisi vardır. İstehsal gücü sutkada 12 tondur. Gələcəkdə gündəlik istehsalı 48 tona çatdırmaq nəzərdə tutulub. Qonaqlara fabrikin istehsal texnologiyaları, soluxma, qurutma, burma, fermentləmə, sortlaşdırma prosesləri haqqında məlumat verilib. Müasir standartlar səviyyəsində qurulmuş çəkici-bükücü sexdə müxtəlif çəkilərdə çay bükümləri hazırlanır. Burada dəqiqədə 8 çay bükümü buraxılır.

Tədbir iştirakçıları müəssisənin ofis binası, "Çay muzeyi", dequstasiya zalı və "Çay evi" ilə də tanış oldular.

"Astaraçay" MMC-nin direktoru Tələt Məmmədov bildirib ki, Azərbaycanın İSO-ya üzv qəbul olunması dünyanın inkişaf etmiş ölkələrinin milli standartlaşdırma təşkilatları ilə yaxından əməkdaşlıq etməyə, beynəlxalq standartların tətbiqinə və qabaqcıl təcrübənin öyrənilməsinə geniş imkanlar açıb. Bu gün müəssisənin həyatında əlamətdar günlərdən biridir. "Astaraçay" MMC-nin Beynəlxalq Standartlaşma Təşkilatının (İSO) tələblərinə uyğun hazırladığı məhsullar beynəlxalq sertifikatlara layiq görülüb.

Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev 2015-ci il aprelin 11-də Prezident İlham Əliyevin Astara rayonuna növbəti səfəri çərçivəsində fabrikə baş çəkdiyini və görülmüş işləri yüksək qiymətləndirdiyini diqqətə çatdırıb.

"Astara çayı nə qədər gözəldir, ləzzətlidir, keyfiyyətlidir" sözləri bu gün artıq reallığa çevrilib. Astara çayının xarici bazarlara çıxması üçün gözəl imkanlar yaranıb. Beynəlxalq standartlara uyğun emal olunan, müxtəlif çəkilərdə qablaşdırılan və "Astara çayı" etiketilə buraxılan məhsullara xarici ölkələrdə maraq getdikcə artır.

Türk Standartları İnstitutunun Azərbaycan təmsilçisi Səlim bəy Çələbi əlamətdar hadisə münasibətilə "Astaraçay" MMC-nin kollektivini təbrik edərək müəssisənin uğurlarını ölkədə həyata keçirilən davamlı sosial-iqtisadi inkişafın bariz nümunəsi kimi dəyərləndirib.

Sonda mərasim iştirakçıları şirniyyat stolu ətrafında ətirli Astara çayının dadına baxıblar.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**